## Ümumi məlumat

Füzuli rayonu Qafqaz dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və İran İslam Respublikası ilə həmsərhəddir. Rayonun ərazisi 1386 $km^2$, əhalisi isə təxminən 144 min nəfərdir. Rayonda 2 şəhər, 16 qəsəbə, 82 kənd vardır. Füzuli rayonu ilə Bakı arasında olan məsafə 310 km-dir.

Füzuli rayonu 23 avqust 1993-cü ildə tam işğal olunmuşdu. 51 kənd və rayon mərkəzi ermənilər tərəfindən işğal olunub, 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulmuşdur. Füzuli şəhərinin təxminən 17 min sakininin hamısı zorla qovuldu. İşğal dövründə şəhər bütünlüklə dağıdıldı və kabus şəhərinə çevrildi. 1993-cü ilin dekabrından 1994-cü il yanvarın 6-dək Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əməliyyatlar nəticəsində Horadiz qəsəbəsi, Füzuli rayonunun 20 kəndi işğaldan azad edilmişdir. 1995-1997-ci illərdə Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərinə 40 min dinc sakin qayıdaraq öz normal həyatlarını bərpa ediblər. Füzuli rayonunun mərkəzi aparatı şəhər statusu verilən Horadizdə yerləşir.




Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Füzuli səhəri, Yağlıvənd, Dövlətyarlı, Qacar, Divanalılar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Govşad, Xələfşə, Mollavəli, Xatunbulaq kəndlərinin əhalisi çəkmişlər.

1992-ci ildən münaqişənin nizamlanması missiyasını öz üzərinə götürən ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyəti, təcavüzkara qarşı sanksiyaların tətbiq edilməməsi Ermənistanı şirnikləndirir, "yeni torpaqlar uğrunda yeni müharibə" sözləri ilə Azərbaycanı hədələyirdi. 2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Təxribatın məqsədi regionda mövcud gərginliyi daha da qızışdırmaq, üçüncü dövlətləri münaqişəyə cəlb etmək və Azərbaycanın strateji infrastrukturlarına nəzarəti ələ keçirməkdən ibarət idi. 2020-ci ilin avqust ayında Ermənistan növbəti hərbi təxribata əl ataraq, terror aktları törətmək məqsədilə Azərbaycana diversiya qrupu göndərdi. Lakin 2020-ci il

avqustun 23-də həmin qrup zərərsizləşdirildi. 2020-ci il sentyabrın 24-də Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını növbəti dəfə bəyan etdi. Lakin təəssüf ki, Ermənistanın ardıcıl təxribatları və yeni müharibə planlarına son qoyulması üçün ATƏT-in Minsk qrupu tərəfindən heç bir praktiki addım atılmadı. 2020-ci il sentyabr ayının 27-də səhər saat 06.00 ətrafında Ermənistan silahlı qüvvələri növbəti dəfə daha geniş miqyasda Azərbaycan Ordusunun mövqeləri və təmas xətti boyunca yerləşmiş yaşayış məntəqələrinə qarşı hərbi təxribata əl atdılar. Onlar iriçaplı silahlardan, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından həmin mövqeləri intensiv şəkildə atəşə tutdular. Nəticədə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qərarı əsasında Azərbaycan Ordusunun bütün cəbhə boyu əks-hücum əməliyyatları başlandı.

Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını işğal altında olan ərazilərdəki təmas xəttinin üç istiqamətindən - Ağdam-Tərtər, Murovdağ və Füzuli-Cəbrayıl istiqamətlərindən həyata keçirilməyə başladı. “İkinci Qarabağ”, yaxud “Vətən müharibəsi” kimi adlandırılan 44 günlük müharibə başlandı.




Müharibənin elə ilk günündən erməni silahlı qüvvələrinin müdafiə xətləri yarıldı. Nəticədə Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, günün ikinci yarısında isə Murov dağ silsiləsində Murov zirvəsi erməni işğalından azad edildi. Adları çəkilən yaşayış məntəqələri Vətən müharibəsinin gedişində azadlığına qovuşmuş ilk yaşayış məntəqələri oldular.

Oktyabr ayının ilk günlərində Azərbaycan Ordusunun uğurlu döyüşləri davam etdi. Cəbhənin şimal-şərq hissəsində Azərbaycan Ordusunun bölmələri güclü erməni müdafiə mövqelərini yararaq Suqovuşan kəndi ətrafındakı hakim yüksəklikləri ələ keçirdi. Bu da imkan verdi ki, Suqovuşan kəndi nəzarət altına alınsın. Cəbhənin şimal istiqamətində erməni hərbi qüvvələrinin itirilmiş mövqeləri bərpa etmək cəhdlərinin qarşısı alındı. Cəbrayıl-Füzuli istiqamətində də erməni hərbi qüvvələrinin müqaviməti qırıldı və onlar geri çəkilməyə məcbur edildilər.

Erməni tərəfi məğlubiyyətdən qurtulmağın yolunu ATƏT-in Minsk qrupuna, dünya dövlətlərinin rəhbərlərinə və havadarlarına davamlı olaraq zəng etməkdə və onların təzyiqləri ilə Azərbaycanı müharibəni dayandırmağa məcbur etməkdə görürdü.

Oktyabrın 3-də Füzuli rayonunun Aşağı Əbdülrəhmanlı kəndi işğaldan azad edildi.

Ermənilər açıq döyüşdə Azərbaycan Ordusuna qarşı müqavimət gücündə olmadığı üçün mülki obyektlərin və yaşayış məskənlərinin bombalanmasına əl atdı. Ermənistan ərazisindən Füzulu rayonunun ərazisi, işğal altında olan ərazilərdən isə Ağdam və Tərtər rayonlarının kəndləri artilleriya atəşinə məruz qaldı.

Azərbaycan ordusu 2020-ci il oktyabr ayının 4-də Cəbrayıl şəhərini və onun ətrafında olan 9 yaşayış məntəqəsini işğaldan azad etdi.

Oktyabrın 9-da Yuxarı Güzlək və Gorazıllı kəndləri erməni silahlılarından təmizləndi. ,

Həmin gün Prezident İlham Əliyev Azərbaycan xalqına müraciətində ordumuzun ermənilərin təmas xəttini yarıb keçdiyi, Hadrut qəsəbəsinin və digər yaşayış məntəqələrinin işğaldan azad edildiyi müjdəsini xalqa çatdırdı.

Oktyabrın 14-də də  Qarabağlı, Xatunbulaq, Qarakollu, ertəsi gün isə Arış kəndi işğaldan azad edildi.

Oktyabrın 15-də etdiyi paylaşımda Ali Baş komandan Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının daha 6 kəndinin Azərbaycan Ordusunun uğurlu hücumları ilə erməni hərbi qüvvələrindən təmizləndiyi xəbərini verdi.

17 oktyabr 2020-ci ildə isə Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad olundu.

Oktyabrın 18-də Füzuli şəhərində Azərbaycanın dövlət bayrağı qaldırıldı. Gün ərzində Füzuli istiqamətində gedən döyüşlərdə erməni hərbi qüvvələrinin döyüş meydanında tərk etdiyi hərbi texnikası və silah-sursatı Azərbaycan Ordusunun bölmələri tərəfindən qənimət kimi götürüldü. Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində öz mövqelərini daha da möhkəmləndirdi. Oktyabrın 19-u gün ərzində və 20-nə keçən gecə cəbhənin Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı amansız zərbələr endirildi.

Davam edən əməliyyatlar nəticəsində oktyabrın 20-də Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Saracıq, ertəsi gün Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri Ermənistan ordusundan təmizləndi.

Oktyabrın 25-nə keçən gecədən başlayaraq cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları uğurla davam etdirildi.

Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə 2020-ci il oktyabr ayının 26-da səhər saat 08.00-dan etibarən cəbhə xəttində humanitar atəşkəs haqqında razılıq əldə edilmişdi. Lakin humanitar atəşkəs rejimi qüvvəyə mindikdən bir neçə dəqiqə sonra Ermənistan ordusu Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərində yerləşən mövqeləri və yaşayış məntəqələrini, Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutdu.

Oktyabrın 28-də Mandılı kəndi azad edildi. Noyabrın 7-də Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar və Divanalılar kəndləri, 9 noyabrda isə Qobu

Dilağarda, Yal Pirəhmədli, Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu və Ələsgərli kəndləri Azərbaycan Silahlı qüvvələri tərəfindən Ermənistanın işğalından azad olundu.

Noyabr ayının 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz Twitter hesabından Azərbaycanın yeni yaşayış məntəqələrinin erməni işğalından azad edilməsi ilə bağlı növbəti paylaşımını etdi. Bu paylaşımda Zəngilan, Füzuli, Cəbrayıl, Xocalı, Qubadlı və Xocavənd rayonlarına aid olan daha 16 kənd erməni işğalçı qüvvələrindən təmizlənməsi müjdəsi verilmişdi.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqların azad edilməsi uğrunda Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən etibarən keçirdiyi hərbi əməliyyatlar nəticəsində Füzuli şəhəri və rayonun işğal altında olan 53 kəndi işğaldan azad edilmişdir.

Noyabrın 8-ci isə Azərbaycan tarixinə Şuşa şəhərinin erməni işğalından azad edilməsi günü kimi yazıldı. Bu şəhərin azad edilməsi Qarabağın dağlıq hissəsinin Ermənistanla əlaqələrinin tam məhdudlaşdırılması, hərbi-strateji baxımdan isə bölgənin tamamən nəzarət altına alınması demək idi.

Bütünlükdə Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində döyüş meydanlarında əldə edilmiş uğurlar nəticəsində 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan, Şuşa, Qubadlı şəhərləri, Hadrud və Suqovuşan qəsəbələri, digər kənd və qəsəbələr işğaldan azad edildi.

İkinci Qarabağ müharibəsinin başa çatmasından bir həftə sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə işğaldan azad edilmiş Füzuli rayonunda olmuşlar.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı. Dövlətimizin başçısı dedi: “Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb”.

Daha sonra Prezident İlham Əliyev Füzulidə bərpa-quruculuq işlərinə başlanılması haqqında göstəriş verdiyini söyləyərək dedi: “Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı

qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını!“

İşğaldan azad edildikdən sonra şəhərin yenidən qurulmasına başlanılmışdır. Yenidənqurma nəticəsində Füzuli şəhərinin inzibati ərazisinin 1.943 hektara, əhalisinin 50.000 nəfərə çatacağı nəzərdə tutulur. Şəhərin Baş Planında qeyd edilib ki, rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binalarının, həyətyanı torpaq sahələri olan fərdi yaşayış evlərinin layihələndirilməsi, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonaların yaradılması təklif edilir.



14 yanvar 2021-ci ildə Prezidenti İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoymuşdur. Hava limanının təməlqoyma mərasimində dövlətimizin başçısı demişdir: “Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər”.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli rayonunda olublar. Səfər zamanı Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymuşdur.

2021-ci il martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli rayonunda olublar. Həmin gün işğaldan azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyacaq Füzuli-Hadrut avtomobil yolunun təməli qoyulmuşdur.

14 iyun 2021-ci ildə Füzuli rayonuna səfəri zamanı Prezident İlham Əliyev Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanış olmuşdur. Həmçinin yeni tikilən “Füzuli” yarımstansiyasının açılışında iştirak etmişdir.

Füzuli hava limanının tikintisini gündəlik nəzarətdə saxlayan Prezident İlham Əliyev 29 avqust 2021-ci ildə Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdur

17 oktyabr 2021-ci ildə Füzuli rayonuna səfəri zamanı Prezident İlham Əliyev Füzuli-Ağdam avtomobil yolunun, Dövlətyarlı kəndində yeni “Ağıllı kənd”in təməllərini qoymuşdur. Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olmuşdur. “Azərişıq” ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin təməlini qoymuş, Füzuli Mərkəzi Şəhər



parkında yaradılacaq şəraitlə tanış olmuşdur. Həmçinin Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlini qoymuşdur. Prezident İlham Əliyev Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoymuşdur.

26 oktyabr 2021-ci ildə Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər. Həmin gün dövlət başçıları Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olmuşlar.

10 may 2022-ci ildə Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Füzuliyə səfəri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkmiş, Füzuli şəhərində 180 çarpayılıq xəstəxananın təməlini qoymuşlar.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 26 may 2022-ci ildə Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olmuşlar.

7 noyabr 2022-ci ildə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

18 Mart 2023-cü ildə Nazirlər Kabineti "Füzuli şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında qərar qəbul etmişdir. Baş olana əsasən Füzuli şəhərinin inzibati ərazisinin 1.943 hektara, əhalisinin 50.000 nəfərə çatacağı nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 5 may 2023-cü ildə Füzuli rayonunun Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak etmişlər. Pirəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 178 hektardır. Kəndə 2 min 369 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 565 fərdi ev tikiləcək. Dədəli kəndinin təməlini qoymuşdur. Dədəli kəndinin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327

fərdi ev tikiləcək. Həmçinin Füzuli-Hadrut avtomobil yolu istifadəyə verilmiş, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoymuşdur. “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışı olmuşdur. Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyulmuşdur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar. İkimərtəbəli məktəb binasında 24 nəfərlik 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana və kitabxana mövcuddur.



Prezidenti İlham Əliyev 8 may 2023-cü ildə Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olmuşdur.

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 8 may 2023-cü ildə Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlərlə tanış olublar.

Prezidenti İlham Əliyev2023-cü il iyulun 20-də 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

23 avqust 2023-cü ildə Prezidenti İlham Əliyev ölkəmizə səfər edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Füzuli rayonuna gəlmişlər. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birgə Füzuli şəhərinin Baş planı ilə tanış olmuşlar. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzuli şəhərində inşa edilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak etmişlər. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birgə Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşmüşlər.



18 avqust 2023-cü ildən etibarən Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşan ailələr Füzuli şəhərinə yola salınır.



Prezidentilham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

15 sentyabr 2023-cü ildə Füzulidə 30 ildən sonra ilk tədris ilinin zəngi çalındı. Mirzə Uluqbəy adına Füzuli şəhər 1 saylı tam orta məktəbi qapılarını şagird və müəllim kollektivinin üzünə açdı. Yeni dərs ilində məktəbdə 160 şagirddən ibarət 11 sinif təşkil edilib və 15 müəllim burada tədris aparır. Məktəb üçün ayrılan 3 hektar ərazi futbol meydançası, 8 söhbətgah, uşaqlar üçün oyun meydançası, elektrik şəbəkəsi binası, fərdi qazanxana, su hovuzu və digər zəruri yardımçı binalardan ibarətdir.

Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 16-da Füzuli rayonunun Cuvarlı və Qoçəhmədli kəndlərinin, Füzuli şəhərində ikinci və üçüncü yaşayış kompleksinin, Füzuli şəhərində idman kompleksinin, Füzuli şəhərində inzibati binanın, Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməlini qoymuşdur.



Hazırda Füzuli rayonunda 5 kəndi birləşdirən Dövlətyarlı ağıllı kəndi inşa edilir. İlkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Burada, həmçinin məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq, bazar yaradılacaq. Kəndin ətrafında isə “Ağıllı kənd” təsərrüfatı sahəsi olacaq. Sakinlərin rahat yaşaması və kənd təsərrüfatı ilə məşğul olması üçün bütün zəruri işlər həyata keçiriləcək. Kənddə xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaq. İnvestisiya layihəsinin gücü 50 meqavat olacaq. Burada kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq. Kənddə Köndələnçay su anbarı əsasında ağıllı akvakultura sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması nəzərdə tutulub. Burada quşçuluq təsərrüfatı yaradılacaq, ilkin mərhələdə 85 daimi iş yeri olacaq.

Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti 31 iyul 2023-cü il tarixdə Sərəncam imzalayıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" həmin Sərəncama əsasən hər il oktyabrın 17-si **"Füzuli şəhəri günü"** kimi təntənəli şəkildə qeyd olunması qərara alınıb. 28 il ərzində erməni vandalları tərəfindən xarabazara çevrilən Füzuli şəhəri və Füzuli rayonu külündən yenidən doğulur. 30 ildən artıq doğma ocaqlarına həsrət qalan füzulililər ən müasir və abad şəkildə yenidən inşa edilən doğma yer-yurdlarına qayıdırlar.



Prezident İlham Əliyev oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Həmin gün Füzuli şəhərində şəhər günü münasibətilə təntənəli mərasimlər keçirilmişdir.

Dövlətimizin başçısının gündəlik nəzarəti və qayğısı sayəsində tezlikdə Füzuli rayonunun da daxil olduğu Şərqi Zəngəzur gündən-günə cənnətə çevrilir.

## İstifadə edilmiş ədəbiyyat

Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü. Məlumat toplusu. Bakı, 2013.

Azərbaycan Milli Ensiklopediyası. 9-cu cild, Bakı, 2014.

Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru. Bakı, 2021.

Qarabağ həqiqətləri = Karabakh Realities = Истины Карабаха. Bakı, 2011.

Qasımlı, Musa. Azərbaycan Respublikasının tarixi (1991-2021). 2 cilddə. II cild (2003-2021). Bakı, 2021.

Paşayeva Məhəbbət. Qarabağın və Şərqi Zəngəzurun alban abidələri. Bakı, 2022.

Mehman Süleymanov. Münaqişənin həll edilməsi. preslib.az/projects/azdiplomacy/a2_4.pdf

https://president.az

https://azertag.az/

https://files.preslib.az/projects/zefer/az/rayonlar.pdf

https://armenianvandalism.preslib.az/az_fizuli.html

https://armenianvandalism.preslib.az/az_gallery.html

http://www.fuzuli-ih.gov.az/az